Ədəbiyyat qəzeti

12 25 iyul 2020-ci il

Nəriman HƏSƏNZADƏ

# Dostum Etibara

*Etibar Əbilova*

Etibarsız bir dünyaymış, Etibar,
heykələ dönmüşdün, tək ayaq üstə,
Mən bilmədim, "yonan" kimdi bu "daşı",
nə yerdə görmüşdüm, nə varaq üstə.

Tanrı çox görməsin qızını sənə,
o loğman qaytardı özünü sənə*.
Bir deyən yoxuydu düzünü sənə,
od tutub yanırdın od-ocaq üstə.

O da Hippokratdan, Qalendən gəlir,
əlindən tutdu ki,
əlindən gəlir!
Deyim, bilirsənmi o nədən gəlir? -
yaşayır ilahi bir əxlaq üstə.

Bir alim demişdi, bu dünya sirdi,
amma deməmişdi kim müqəssirdi.
Mənə əl verəndə, əlin əsirdi
Kölgəndən görürdüm mən, torpaq üstə.

Mən də sən yaşında bu qəmi gördüm,
mən nə gündüzümü, gecəmi gördüm.
Ağlar qafiyəmi, hecamı gördüm,
çəkdikcə, göynədim ahı-ah üstə.

Sən ata yurdunda güman yerisən,
ürəyin - ağrıyan, yanan yerisən.
Kür üstə qızaran bir dan yerisən,
sən də işıq payla, yan, mayak üstə.

*Məşhur böyük loğman Əhliman Əmiraslanov (müəllif)*